# “Bu, sənin yolundur”

## *Hörmətli millət vəkilimiz Fəzail Ağamalı gənc istedadlarla görüşdü*



4 dekabr 2019-cu ildə vətənini, xalqını, dövlətini sevən, Ulu Öndərimizə sadiq, Prezidentimiz Cənab İlham Əliyevi dəstəkləyən, biz gənclərə dəyər verən hörmətli millət vəkilimiz Fəzail Ağamalı “Sizi Tanıyaq” layihəsinin bir qrup gənc istedadlıları ilə görüş keçirtdi. Bu görüşdə mən də iştirak edirdim.

Hörmətli millət vəkilimiz Fəzail Ağamalı görüşü öz nitqi ilə açdı və Sizi Tanıyaq layihəsinin istedadlı gənclərinə uğurlar arzu etdi. Sözü layihə rəhbərimiz Vüsalə xanım Qələndərliyə verdi. Vüsalə xanım görüşə görə Asiya İnformasiya Agentliyi nəzdində fəaliyyət göstərən "Sizi Tanıyaq" layihəsinin rəhbərliyi adından Fəzail müəllimə təşəkkür etdi. Bildirdi ki, bu görüşə layihənin kiçik nümayəndə heyəti ilə gəlmişdir. Ancaq layihədə çoxlu sayda gənc istedadlılar iştirak edirlər. Vüsalə xanım onu da qeyd etdi ki, biz tez-tez istedadlı gənclərlə ziyalıların görüşünü təşkil edirik. Bilirəm ki, Fəzail müəllimin istedadlı gənclərə böyük bir sevgisi vardır. İnanıram ki, bu gün onların istedadını gördükdə bir daha onlarla qürur duyacaqsınız. Vüsalə xanım sözü gənclərə verdi. İlk olaraq səhnəyə gənc ifaçı Ülkər Abdullayevanı dəvət etdi. Ülkər Rüstəmbəyli Əli və Cavanşir qardaşlarının müşayiəti ilə "Var gülüşündə" adlı mahnını ifa etdi. Sonra isə Vüsalə xanım gənc qiraətçi Hilda Rəhmanovaya söz verdi. Görüşdə Vüsalə xanım Qələndərli üçüncü olaraq sözü mənə verdi. Mən "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir kitablarımı və "Kredo" qəzetində dərc olunmuş məqalələrimi Fəzail müəllimə təqdim etdim. Öz haqqımda kiçik məlumat verdim. Həmçinin şeir kitablarımın Milli Kitabxananın Elektron Kataloqunda onlayn oxumaq üçün oxucuların istifadəsinə verilməsindən, 40-a yaxın məqaləmin olmasından da söz açdım. “Kredo” qəzetinin baş redaktoru hörmətli Əli Rza Xələflinin məni həmin qəzetin redaksiya heyətinə üzv və ən gənc ictimai müxbir vəzifəsinə qəbul etməsi barədə məlumat verdim. Çıxışımı "Anam Azərbaycanım" adlı şeirimlə bitirdim. Nitqim Fəzail müəllimin çox xoşuna gəldi. Mənə dedi ki, sənin adını valideynlərin Sevindik qoyub, tamamilə sənin istedadına uyğun qoyublar. Çünki sən dünyaya gəlməyinlə təkcə bir ailəni sevindirməmisən. İndi sən bu istedadınla və gələcək həyat yolunla heç şübhəsiz Azərbaycanı sevindirəcəksən. Sənin yolun bəllidir. Tanrı sənin yolunu özü qoyub. Sən gələcəkdə özünü harda görmək istəyirsən? Mən isə sualına belə cavab verdim: "Mən Azərbaycan Diplomatik Akademiyasında oxuyub diplomat olmaq istəyirəm". Fəzail müəllim dedi ki, Allah sənə bu istedadı verib, təbii ki, Azərbaycana diplomat da lazımdır, siyasətçi də lazımdır, iqtisadçı da lazımdır, ancaq Azərbaycana sənin kimi şair də lazımdır. Sənin şair yerin dolmayanda səni kim əvəz edəcək? Bu dediklərimdən bir nəticə çıxart.



Sənin neçə yaşın var?

-12.

-12 yaşında 2 şeir kitabın var. Şeirin də çox gözəl idi. Qafiyəsi, mənası, yükü, sevgisi, hər şeyi yerində idi.- Neçə yaşında bu şeiri yazmısan?

-8-9 yaşımda.

-Ay MaşAllah. Sənin 8-9 yaşında yazdığın "Anam Azərbaycanım" adlı şeirinlə Səməd Vurğunun "Azərbaycan" adlı şeiri və digər şairlərimizin Azərbaycanla bağlı şeirləri arasında o qədər də fərq yoxdur. Çünki orada sənin ürəyin var, vətənə sevgin var. Heç kim sənə deməyib ki, onu yaz? İçindən gəlib. Doğrudur?



-Doğrudur.

-Dünyagörüşündən gəlib. Sən bu vergini, bu istedadı diplomat missiyasına dəyişmə. Ədalətli olmaz. Səni Yaradan da səndən inciyər. Deyər ki,- mən sənə bu istedadı verdim, sən niyə onun dalınca getmədin? Sənə verdiyim bu taledən, bu yoldan imtina edib, başqa yolu seçdin. Sənin bu şeirlərindən nəinki bir diplomat, diplomatlar, mühəndislər, həkimlər, müəllimlər, gələcək şagirdlər, tələbələr, mənim kimi siyasətçilər yararlana bilər. Yaşıdların və gələcəkdə gənclər səndən öyrənər ki, necə vətənpərvər olmaq lazımdır, ona görə də mən sənə tövsiyə edirəm ki, Tanrının sənə verdiyi yoldan çıxma. Allah sənə şairlik istedadı verib. O istedad hər insanda olmur. Səndə bu istedad uşaqlıqdan başladığı üçün istedadın keçməyəcək. Bu, sənin yolundur”.

Dəyərli millət vəkilimiz gələcəkdə məni Bakı Dövlət Universitetinin Filologiya fakültəsində görməyi arzuladı.

Sonra mən hörmətli Fəzail müəllimə yaxın vaxtda nəşr olunacaq "Naxçıvan xatirələri" adlı yeni albom-kitabım haqqında məlumat verdim. Fəzail müəllim məndən soruşdu ki, Naxçıvana getmişdin? Orada hansı yerlərdə oldun? Mən isə Möminə Xatun Türbəsində, Hüseyn Cavid məqbərəsində, Nuh peyğəmbərin qəbirüstü abidəsində, Ulu Öndərimiz Heydər Əliyevin adını daşıyan muzeydə, Duzdağda, Batabatda və s. yerlərində olduğumu dedim və həmin kitabda Naxçıvanla bağlı xatirələrimi yazdığımı söylədim.

Fəzail müəllim bu fikirlərimi çox bəyəndi. Universiteti qurtardıqdan sonra təyinatla Naxçıvana göndərildiyindən danışdı. Həmçinin doğulduğu yerin Batabatın o tayındakı Zəngəzurun Şıxlar kəndi olduğunu dedi.Bir də qeyd etdi ki, Ulu Öndərimiz Heydər Əliyevin yurdu da Zəngəzurda idi. Ulu Öndərin ailəsi 1918-ci ilə kimi Zəngəzurda yaşayıb. 1918-ci ildən sonra erməni-Azərbaycan müharibəsi zamanı Naxçıvana köçüblər. Bu il mən Naxçıvana getdim, çıxdım Batabatın ən yüksək yerinə. Ordan yurdumun nəfəsini, iyini aldım, bir bənd bədahətən bayatı da yazdım. Sən yurdsevər övladsan, eşq olsun sənə.

Sonra hörmətli Fəzail müəllim layihənin digər istedadlı gənclərinin səsləndirdiyi şeirləri və ifa etdikləri mahnıları diqqətlə dinlədi. Onlardan Elman İmanovun, Rəvanə Məmmədlinin, Nuray Məmmədlinin, Vüsal İsmayılovun, Mələk Muradllının, Cəmilə Heydərovanın, Maarif Rüstəmovun,- Mehman Ağazadənin, Gülxanım Məmmədlinin, İbrahim Lətifovun, Nuray Sadıqzadənin, Loğman Zeynalovun, Kənan İsmayılovun və Elmira İbrahimovanın adlarını çəkə bilərəm.- Fəzail müəllim hər bir iştirakçıya ayrı-ayrılıqda münasibət bildirdi və dəyərli tövsiyələrini verdi.

Hörmətli millət vəkilimiz Fəzail Ağamalıya biz gənclərə xoş münasibət, diqqət və qayğı göstərdiyinə görə həm öz adımdan, həm də “Sizi Tanıyaq” layihəsinin gənc istedadlıları adından dərin təşəkkürümü bildirirəm. Fəzail müəllim, Tanrı sizi qorusun!

***Sevindik NƏSİBOĞLU***
***04.12.2019.***